**UOT 32**

# "SİYASİ ŞƏXSİYYƏT" ANLAYIŞI: AZƏRBAYCAN REALLIQLARI PRİZMASINDA NƏZƏRİ TƏHLİL (1993-2000-Cİ İLLƏR)

**Seymur Talıbov**
Siyasi elmlər üzrə fəlsəfə doktoru,
Naxçıvan Dövlət Universiteti
seymurt@gmail.com
DOI:10.30546/ifs.2021.1 (36).28

**Xülasə.** Məqalədə "siyasi şəxsiyyət" anlayışının siyasi-nəzəri təhlili verilib. Bu məsələ liderin şəxsiyyəti ilə liderlik arasındakı qarşılıqlı əlaqələr kontekstində araşdırılıb. Göstərilib ki, siyasi şəxsiyyət anlayışı siyasi fəaliyyətdə mühüm faktorlardan biridir.

Böyük siyasətdə şəxsiyyətin malik olduğu keyfiyyətlərlə liderliyin miqyası arasında sıx bağlılığın mövcudluğu tezisi irəli sürülüb. Həmin çərçivədə məqalədə sübut edilir ki, cəmiyyət üçün ən həssas mərhələlərdə ilk növbədə siyasi şəxsiyyətin malik olduğu keyfiyyətlər onun liderlik imkanlarının üzə çıxmasına təkan verir. Bu baxımdan Maks Veberin "xarizmatiklik" anlayışının daha geniş anlamına ehtiyac olduğu tezisi ifadə edilib. Göstərilib ki, fərdin şəxsi keyfiyyətləri, keçdiyi həyat yolu, ailə ənənəsi, psixoloji özəlliyi və başqa faktorlar siyasi fəaliyyətdə müəyyənedici rol oynayırlar. Məhz bu müstəvidə siyasi şəxsiyyətlə onun konkret siyasi fəaliyyəti arasında qarşılıqlı əlaqələrin bir sıra siyasi-nəzəri məqamları analiz edilib.

Ayrıca, Azərbaycanda 1992-1993-cü ilin iyununa qədər olan müddətdə yaranmış total böhran şəraitində Heydər Əliyevin şəxsi keyfiyyətlərinin onun xilasedici lider kimi təkrar meydana çıxmasına imkan yaratmasının nəzəri aspektləri təhlil edilib. Həmin əsasda Heydər Əliyev şəxsiyyətinin 1993-2000-ci illər arası müddətdə liderlik fəaliyyəti ilə qarşılıqlı əlaqədə unikallığı, yüksək zəkavi, mənəvi-əxlaqi keyfiyyətlərə, yenilməz siyasi iradəyə və böyük təcrübəyə malik olmasının təhlili aparılıb.

**Məqsəd:** "siyasi şəxsiyyət" anlayışının liderlik və Azərbaycan reallıqları kontekstində (1993-2000-ci illər) nəzəri analizini aparmaqdan ibarətdir.

**Metodologiya**: Siyasi-tarixi yanaşma fonunda fənlərarası metodologiyadan istifadə edilib.

Tarixilik və kommunikativlik kontekstində şəxsiyyətin formalaşmasına psixoloji, sosial və siyasi faktorların yekun təsiri, siyasi-psixoloji faktorların dinamik təkamülü metodları və şəxsiyyət-ətraf mühit qarşılıqlı təsirlərini sistemləşdirməyə imkan verən inteqrativ metod tətbiq edilib.

**Elmi yenilik:**

1. Siyasi rəhbərliyin və liderliyin məzmununa siyasi şəxsiyyət-liderlik qarşılıqlı təsirlərinin konkret nisbəti ciddi təsir edir.

2. Siyasətçinin şəxsiyyəti dövlət başçısı və ümummilli liderliyin bir şəxsdə təcəssüm etməsində həlledici, aparıcı və müəyyənedici faktordur.

3. 1993-2000-ci illərdə Azərbaycanın siyasi təcrübəsi Heydər Əliyevin xilaskar-nizamlayıcı-cəmiyyəti birləşdirən dövlət qurucusu lider kimi özünü təsdiqlədiyini göstərdi. Bu proses siyasi şəxsiyyət – lider qarşılıqlı təsirlərinin xüsusi məzmun kəsb etməsi sayəsində reallaşdı.

**Açar sözlər:** siyasi şəxsiyyət, dövlət başçısı, lider, xarizma, siyasi böhran, xilaskar, nizamlayıcı lider, qurucu (birləşdirici) lider, liderlik stili

# ПОНЯТИЕ «ПОЛИТИЧЕСКАЯ ЛИЧНОСТЬ»: ТЕОРЕТИЧЕСКИЙ АНАЛИЗ В ПРИЗМЕ АЗЕРБАЙДЖАНСКИХ РЕАЛИЙ (1993-2000 ГГ.)

**Сеймур Талыбов**

**Резюме.** В статье анализируется понятие «политическая личность». Анализ проводится в контексте взаимосвязи между лидерством и личностью лидера. Показывается, что понятие политическая личность является важным фактором в политической деятельности.

Кроме этого, существует тесная взаимосвязь между личностными качествами политика и масштабом лидерства. В этой плоскости в статье доказывается, что в кризисные периоды для общества личные качества лидера играют существенную роль в процессе реализации потенциала лидера. В этом ракурсе выдвигается тезис о том, что есть необходимость в более широком понимании веберовского понятия «харизма». Показывается, что личные качества индивида, пройденный им жизненный путь, семейная традиция, психологические особенности играют конкретную роль в политической деятельности. Именно в этой плоскости анализируются некоторые политико-теоретические факторы во взаимодействиях между практической деятельностью и политической личностью.

Отдельно анализируются теоретические аспекты процесса самоутверждения как лидера-спасителя нации Гейдара Алиева в контексте его личных качеств во время тотального кризиса в Азербайджане (1992-июнь 1993 гг.). На основе этого анализируется деятельность Гейдара Алиева в период 1993-2000 гг. в свете взаимосвязей этой деятельности с высокими личными качествами Общенационального лидера (уникальность личности, высокая степень разума и духовно-моральных качеств, непобедимая политическая воля и большой опыт).

**Научная цель.** Анализировать понятие «политическая личность» в контексте лидерства и политической реальности в Азербайджане в период 1993-2000 гг.

**Методология.** На фоне политико-исторического подхода использована междисциплинарная методология.

**Метод.** В контексте историчности и коммуникативности использованы методы воздействия психологических, политических и социальных факторов на формирование личности, методы динамической эволюции политико-психологических факторов и метод систематизации взаимодействий личность-окружающая среда.

**Научная новизна:**

1. На содержание лидерства в политическом руководстве серьезным образом воздействует конкретное понимание соотношения личность-лидерств.

2. Личность-политика является решающим, определяющим и ведущим фактором в процессе синтеза в едином лице функций главы государства и Общенационального лидера.

3. Политический опыт Азербайджана в период 1993-2000 гг. показал, что Гейдар Алиев полностью утверждал себя в качестве спасителя лидера, стабилизирующего лидера и лидера объединяющего общество государственного строителя.

**Ключевые слова:** политическая личность, глава государства, лидер, харизма, политический кризис, спаситель, стабилизирующий лидер, объединитель-строитель лидер, стиль лидерства.

# THE CONCEPT OF "POLITICAL PERSONALITY": THEORETICAL ANALYSIS IN THE PRISM OF AZERBAIJANI REALITIES (1993-2000)

**Seymur Talibov**

**Abstract.**The article analyzes the concept of "political personality". The analysis is carried out in the context of the relationship between leadership and the personality of a leader. It is shown that the concept of a political personality is an important factor in political activity.

In addition, there is a close relationship between the personality traits and the scale of leadership. In this regard, the article proves that in sensitive periods for society, the personal qualities of a leader play an essential role in the process of realizing the potential of a leader. From this perspective, the thesis is put forward that there is a need for a broader understanding of Weber's concept of “charisma”. It is shown that the personal qualities of an individual, his life path, family tradition, psychological characteristics play a specific role in political activity. It is in this plane that some political-theoretical factors in the interaction between practical activity and a political personality are analyzed.

The theoretical aspects of the process of self-assertion as the leader-savior of the nation Heydar Aliyev are analyzed separately in the context of his personal qualities during the total crisis in Azerbaijan (1992-June 1993). Based on this, the activities of Heydar Aliyev in the period 1993-2000 are analyzed. in the light of the relationship of this activity with the high personal qualities of the National Leader (uniqueness of personality, high degree of reason and spiritual and moral qualities, invincible political will and great experience).

**Scientific purpose**. Analyze the concept of "political personality" in the context of leadership and political reality in Azerbaijan in the period 1993-2000.

**Methodology**. An interdisciplinary methodology was used against the background of the political-historical approach.

**Method.** In the context of historicity and communication, methods of influence of psychological, political and social factors on the formation of personality, methods of dynamic evolution of political and psychological factors and the method of systematization of personality-environment interactions were used.

**Scentific novelty.**

1. The content of leadership and political leadership is seriously affected by the specific relationship of the personality-leadership tandem

2. The personality of a politician is a decisive, determining and leading factor in the process of synthesis in a single person of the functions of the head of state and the national leader.

3. The political experience of Azerbaijan in the period 1993-2000. He showed that Heydar Aliyev fully asserted himself as the savior of the leader, the stabilizing leader and the leader of the unifying society of the state builder.

**Keywords:** political personality, head of state, leader, charisma, political crisis, savior, stabilizing leader, leader-builder, leadership style.

**Giriş.** Müasir tarixi mərhələdə politoloqlar siyasətdə şəxsiyyətin rolu və yeri məsələsinə getdikcə daha çox maraq göstərirlər. Bu proses keçən əsrin 90-cı illərinin əvvəllərindən daha da aktuallaşıb. Tədqiqatçılar, bunun əsas səbəbi kimi, dünya miqyasında siyasi, geosiyasi, ideoloji və mədəni dinamikanın ciddi surətdə dəyişməsini göstərirlər. Tanınmış Qərb nəzəriyyəçiləri sırasında bu barədə konkret fikirlər də ifadə edilib (məsələn, H.Kissincer, J.Blondel, F.Fukuyama, C.Nay(kiçik) və başqaları).

Bu tendensiya, alimlərin fikirlərinə görə, iki aspektdə yeni nəticələr verdi. Birincisi, lider və liderliklə bağlı araşdırmaları daha da mürəkkəbləşdirdi. İtalyan politoloq Danilo Zolo bunu

bütövlükdə Qərb dünyasında demokratiyanın, siyasi situasiyanın və onların hər ikisinin nəzəri dərkinin daha da ziddiyyətli olması və mürəkkəbləşməsi ilə izah edir. Onun qənaətinə görə, XX əsrin son iki onilliyində Qərbdə sənaye cəmiyyətindən postsənaye cəmiyyətinə keçid başa çatdı. Sonuncu informasiya-texnoloji inqilabla, transmilli şirkətlərin çoxalması ilə və qlobal qarşılıqlı əlaqələrin vüsət alması ilə xarakterizə olunur. Nəticədə, cəmiyyət sürətli differensiallaşma və mürəkkəbləşmə şəraitində özünütəşkil etməli oldu (1, s. 10-11). İkincisi, böyük siyasətdə liderlikdə şəxsiyyətin rolu məsələsinin daha sistemli, əhatəli və dərindən tədqiqini xeyli aktuallaşdırdı. Tədqiqatçılar məhz bu aspektdə maraqlı bir paradoksdan bəhs edirlər.

Tanınmış politoloq Jan Blondel yazır ki, liderliyin şəxsiyyət kontekstində politoloji öyrənilməsi xeyli zəifdir. Əsas olaraq liderin şəxsi keyfiyyətlərinin psixoloji, sosial, kulturoloji və başlıca olaraq birbaşa politoloji ölçülməsində ciddi çatışmazlıqlar mövcuddur (2, s. 120-125). J.Blondel təklif edir ki, bu məsələdə politoloqlarla psixoloqların əməkdaşlığına ehtiyac vardır. Belə ki, xüsusilə ümummilli liderlərin şəxsi keyfiyyətlərinin kompleks tədqiqi üçün ayrıca metodlar hazırlanmalıdır. Çünki onların həyat yolu başqalarından fərqlənir (2, s. 124-125). Onun qənaətinə görə, həmin üsulla "liderlərin şəxsiyyətini konkret detallarına qədər müəyyən etmək olar" (2, s. 125).

Fransız politoloqun bu qənaəti ilə hazırda bir çox tanınmış tədqiqatçı razılaşır və onlar da öz fikirlərini ifadə edirlər. 2014-cü ildə dərc edilən məşhur "Liderlərin tipləri" əsərində amerikalı politoloq Arçil Braun vurğulayır ki, hazırkı tarixi mərhələdə lider və liderliklə bağlı bütövlükdə dünyada baxışlar və praktiki fəaliyyət üsulları daha da mürəkkəbləşib (3, s. 6-24).

Amerikalı politoloq qeyd edir ki, Avropa da daxil olmaqla, dünya üzrə "güclü lider" yaxud "zəif lider" seçimi ətrafında fərqli mövqelər özünü göstərir. Real həyatda liderlərin fəaliyyəti də məzmunca mürəkkəbləşib və əksər hallarda proqnozlaşdırılan deyil.

Kitabında A.Braun ABŞ-ın son iki prezidentinin şəxsi keyfiyyətlərini, davranışlarını, etik özəlliklərini və liderlik stilini analiz edərək belə qənaətə gəlir ki, siyasi-nəzəri aspektdə liderliyin tədqiqinə yeni yanaşmalar olmalıdır. Bu baxımdan onun öz kitabının başlığına "müəyyən etməli, yanaşma tapmalı" ifadəsini çıxarması başa düşüləndir. O yazır: "Bu kitab üzərində işləri yekunlaşdırandan cəmi bir neçə il sonra (əsər 2014-cü ildə yazılıb, deməli, A.Braun faktiki olaraq 2015-ci ildən bu yana baş verənləri nəzərdə tutur – S.T.) nəhəng demokratik dövlətlər ciddi daxili deformasiyalarla və beynəlxalq aləmdə əhəmiyyətli çağırışlarla üz-üzə qalıblar" (3, s. 6).

Rusiyalı alim E.V.Kudryaşova da demək olar ki, bu mövqedədir. O, 2019-cu ildə belə bir fikir irəli sürürdü ki, müasir mərhələdə çoxlu sayda faktorun liderlik tipinə, üsuluna, stilinə, fəaliyyət miqyasına təsiri var. Bu durumdan rusiyalı alim belə bir nəticə çıxarır: "XX-XXI əsrlərdə meydana gələn liderlik tədqiqatları və nəzəriyyələrinə cəm halında baxmaq gərəkdir – onlar bir-birini tamamlayır, hər biri problemin özünə uyğun aspektini açır və bir-birilərinə təsir edirlər" (4, s. 113).

XX əsrin sonu və XXI əsrin ilk onilliklərində politoloji nəzəriyyədə belə bir fikirlərin söylənməsi liderliklə bağlı tədqiqatların tarixi aspektində xeyli paradoksal görünə bilər. Çünki XIX əsrin ikinci yarısına qədər liderlərlə bağlı irəli sürülən fikirlərin demək olar ki, hər birində başlıca yeri şəxsi keyfiyyətlər tuturdu. XX əsrin əvvəllərindən alimlər liderlərin psixoloji özəlliklərini təhtəlşüur və şüur səviyyəsində öyrənməklə liderliyə konkret məzmun verməyə çalışırdılar. Yəni bu istiqamətdə də tədqiqatların yekunu şəxsi keyfiyyətlərə bağlanırdı.

XX əsrin sonrakı mərhələlərində meydana gələn siyasi təlimlərdə də (situasion, transformasion, dəyər) şəxsiyyət məsələsi müxətlif kontekstlərdə liderliyin mərkəzinə qoyulurdu. Bunların fonunda J.Blondel də daxil olmaqla (keçən əsrin 80-ci illəri) bir çox politoloq liderlikdə şəxsiyyətin müxtəlif parametrlər üzrə (sosial, psixoloji, siyasi, aksioloji, mənəvi-etik və s.) kifayət qədər araşdırılmadığından bəhs edir. Hətta 2015-2020-ci illər arasında aparılan və konkret olaraq prezidentləri, böyük siyasətin liderlərini analiz edən araşdırmaçılar eyni qənaəti ifadə edirlər.

Bütün bunlar siyasi-nəzəri tədqiqat üçün liderlikdə siyasi şəxsiyyətin yeri və rolunun araşdırılmasına ciddi ehtiyacın qaldığını göstərir. Eyni zamanda müasir şəraitdə belə şəxsiyyətin böyük siyasətdə aparıcı rol oynamaqda davam etdiyini təsdiqləyir. Baxmayaraq ki, demokratiya, plüralizm, cəmiyyətin müxtəlif kəsimlərinin idarəetmədə, ictimai rəyin formalaşmasında, insan

haqlarının qorunmasında və başqa vacib sferalarda fəallığı, payı və rolu artıb, liderlərin şəxsiyyəti araşdırmaçıların diqqət mərkəzində qalmaqdadır.

Təbii ki, liderlikdə siyasi şəxsiyyətin rolu məsələsinin tədqiqində, ilk növbədə "siyasi şəxsiyyət kimdir?" sualına cavab axtarılmalıdır. Biz məqalədə məhz şəxsiyyətin rolu məsələsinin həmin aspektini təhlil etməyə çalışacağıq. Həm də problemin Azərbaycan reallıqları kontekstində analiz edilməsi nəzərdə tutulub.

Qarşıya qoyulan elmi məqsədə çatmaq üçün sistemli-tarixi yanaşmadan istifadə ediləcək. Bu zaman metodoloji kontekst fənlərarası götürülüb. Bu metdologiya çərçivəsində şəxsiyyətin formalaşmasına qeyri-xətti təsir edən psixoloji, sosial və siyasi faktorların yekun təsiri, siyasi-psixoloji faktorların dinamik təkamülü metodlarından və şəxsiyyət-ətraf mühit qarşılıqlı təsirlərini sistemləşdirməyə imkan verən inteqrativ metoddan yararlanmışıq. Onlardan tarixilik və kommunikativlik kontekstində istifadə edilib.

Elmi məqsəd "siyasi şəxsiyyət" anlayışının liderlik və Azərbaycan reallıqları kontekstində nəzəri analizini aparmaqdan ibarətdir.

## Əsas hissə/Main part

### Şəxsiyyətin siyasi anlamı: liderlik aspektində

"Şəxsiyyət" anlayışının məzmunu genişdir. O, insanın fərdi, psixoloji, fiziki, fizioloji, mənəvi-əxlaqi, sosial və digər özəllikləri ilə bağlı olduğundan elmi baxımdan hansı aspektdə işlənməsinə uyğun olaraq anlamı, mahiyyəti və məzmunu da konkretləşməlidir. Onu da nəzərə almaq lazımdır ki, "fərd", "fərdiyyət", "insan", "adam", "vətəndaş", "sima", "simalaşma və simasızlaşma" və s. kimi anlayışlarla "şəxs" və "şəxsiyyət" anlayışları bir çox cəhətlərdə kəsişdiyindən konkret elmi yanaşmada bu məqamı da diqqətə almaq gərəkdir. Bu aspektdə tədqiqatçıların bütövlükdə şəxsiyyətin elmi dərkinin mürəkkəbliyi, ziddiyyətliliyi, mübahisəli məqamların çox olmasını vurğulaması tamamilə normal haldır. Məsələn, tanınmış Rusiya filosofu, sosioloqu və psixoloqu İqor Semyonoviç Kon yazırdı ki, "şəxsiyyət problemi kompleks problemdir ki, həm filosoflar, həm sosioloqlar, həm psixoloqlar, həm də pedaqoqlar öyrənirlər" (5, s. 58).

Fikirlərini daha da konkretləşdirərək tədqiqatçı vurğulayır: "...Şəxsiyyətdən danışanda adətən daha çox sadəcə ayrıca götürülmüş konkret adamı nəzərdə tuturlar. Axı, ancaq şəxsiyyət anlayışından başqa ona yaxın olan bir sıra anlayış da ixtiyarımızdadır: insan, fərd, fərdiyyət. Adi danışıqda tez-tez bu anlayışlar eyni mənada işlədilir, *lakin elmdə onlar fərqli nəsnələri ifadə edirlər*(seçim bizimdir – S.T.)" (5, s. 60). İ.S.Kon qeyd olunan anlayışları müqayisə edərək yazır ki, "fərd" anlayışı insanın hansısa bütövün (məsələn, bioloji növün və ya sosial qrupun) birəy nümayəndəsi olmasını ifadə edir. Konkret insanın "real həyatın spesifik xüsusiyyətləri və həmin insanın fəaliyyəti bu anlayışın məzmununa daxil olmur" (5, s. 60). "Fərdiyyət" isə konkret insanın həm bioloji, fizioloji, psixoloji, həm də sosial varlıq olaraq özəlliyini ifadə edir.

Nəhayət, İ.S.Kon şəxsiyyət anlayışının da çoxmənalı olduğunu yazır. O, iki aspektin vəhdətini ehtiva edir. Onlardan biri fəaliyyətin subyekti kimi konkret fərdi (simanı) ifadə edir ki, burada onun fərdi keyfiyyətləri ilə sosial rolu vəhdətdə götürülür. Digər tərəfdən isə "şəxsiyyət fərdin sosial xüsusiyyəti kimi onda inteqrə olunmuş sosial əhəmiyyəti olan özəlliklərin cəmidir ki, onlar da digər insanlarla birbaşa və ya dolayısı ilə olan qarşılıqlı əlaqəsi nəticəsində əmələ gəlir və şəxsiyyəti idrakın, ünsiyyətin və əməyin subyekti edir" (5, s. 60-61).

Yeri gəlmişkən qeyd edək ki, şəxsiyyətin anlamının ikinci aspekti sosiologiya üçün daha çox əhəmiyyət kəsb edirsə, siyasi nəzəriyyələrdə hər iki aspektin qarşılıqlı əlaqəsi və nisbətini diqqətə almaq lazım gəlir. Bu məqam bir daha onu göstərir ki, şəxsiyyətin siyasi anlamı ilə başqa yanaşmalarda yer almış anlamlar arasında fərqlər vardır.

İ.S.Konun fikirləri işığında şəxsiyyətin fəlsəfi və sosioloji anlamının ümumi cəhətlərini müəyyən etmək olar. Birincisi, şəxsiyyət insanın sosial təbiətini ifadə edir. İkincisi, o, sosial-mədəni həyatın subyektidir. Üçüncüsü, o, sosial münasibətlər, ünsiyyət və konkret sahə üzrə fəaliyyət zamanı

öz-özünə açılan (formalaşan, yaranan, əmələ gələn) fərdi başlanğıcdır (6, s. 297).

Belə çıxır ki, fəlsəfi və sosioloji aspektlərdə "şəxsiyyət" insanın fərd, şüurlu fəaliyyət və münasibətlərin subyekti kimi və ya fərdi hansısa cəmiyyətin (və ya icmanın) üzvü olaraq xarakterizə edən sosial əhəmiyyətə malik dayanıqlı sistem kimi dərk edilir. Bu iki aspektin vəhdəti şəxsiyyətin bütöv obrazını yaradır. Ayrı-ayrılıqda isə birincisi şəxsiyyəti "sima" (Persona), ikincisi isə simanın sosial və psixoloji obrazı (Personalitas) kimi xarakterizə edir. Məsələ ondan ibarətdir ki, bu terminlər fərqli olsalar da bir çox hallarda sinonim kimi də işlədilirlər. Bu da şəxsiyyət haqqında fəlsəfi və sosioloji təsəvvürləri bir qədər təzadlı edir.

Şəxsiyyətin fəlsəfi və sosioloji anlamı üzərində geniş dayanmaq bu məqalənin elmi məqsədinə daxil deyil. Qısaca qeyd edək ki, öncə vurğuladığımız ümumi yanaşmanın fonunda XX əsrdə mədəniyyət anlayışının konkret anlamları münasibətində tədqiqatçılar şəxsiyyət məsələsinə ən azı 4 yanaşmadan bəhs edirlər. Onları mədəniyyət və qeyri-şüuri (Z.Freyd, K.Q.Yunq), mədəniyyət və şəxsiyyət (R.Benedikt, R.Linton və s.), mədəniyyət və idraki proseslər (M.Koul və b.) və sosial struktur və şəxsiyyət (üç antropoloji mövqeni - marksizm (K.Marks), pozitivist (M.Veber) və interaksionist (C.Mid) birləşdirir) adlandırırlar.

Ayrıca, şəxsiyyətin psixologiyasında şəxsiyyət mərkəzi anlayışdır. Bu çərçivədə şəxsiyyət müxtəlif psixi əhvalın, vərdişlərin, fərdi prioritetlərin və sairlərin cəmi kimi təsəvvür edilir. Psixoloji yanaşmada şəxsiyyətin dayanıqlı keyfiyyətləri kimi temperament, xarakter, qabiliyyət və motivasiya qəbul edilib. Bunlardan başqa, şəxsiyyətin linqvistik anlamı da mövcuddur. Burada şəxsin nitqi, danışıq özəlliyi, mətnləri qavrama səviyyəsi və miqyası, dəqiq və dolğun ifadə tərzi və digər keyfiyyətlərə baxılır. Məsələn, bu çərçivədə natiq-şəxsiyyət və ünsiyyətcil-şəxsiyyət fərqləndirmələri aparılır (7, s. 51 və 8, s. 127).

Nəhayət, siyasi şəxsiyyətin aydın, dolğun və siyasi-nəzəri yanaşma aspektində adekvat anlamı üçün əhəmiyyəti olan iki özəlliyi vurğulayaq. Onlardan biri şəxsiyyətin tarixi kontekstdə rolu və yerinin dərk edilməsi ilə bağlıdır. Siyasət üçün bunun vacib olduğu şübhəsizdir, çünki siyasi fəaliyyət də tarixidir.

Tarixdə şəxsiyyət dedikdə tarixi zaman və məkan prosesində insanın yeri haqqındakı təsəvvürlərin cəmi nəzərdə tutulur. Burada şəxsin ailə həyatından tutmuş onun tarixi aspektdə bütün növ fərdi və kollektiv fəaliyyəti nəzərdə tutulur. Bu səbəbdən tarixin fərqli dönəmlərində şəxsiyyətin tarixiliyi fərqli dərk edilib. Məsələn, qədim dövrlərdə mifoloji təsəvvür əsasında böyük şəxsiyyətlərin İlahi mənşəli olmasına əsaslanan təsəvvür vardı (məsələn, Şərqdə faraonlar).

Yalnız Qədim Yunanıstanda şəxsin sırf mifoloji anlamı tədricən Vətəndaş anlayışı çərçivəsinə "salınıb". Bu da həmin dövrdə Yunanıstanda çoxlu sayda dövlətlərin (təqribən 158) meydana gəlməsi ilə bağlıdır. Çünki dövlətlər çox olduqca hökmdarların tamamilə İlahi mənşəyə bağlanması elə də inandırıcı görünmür. Onun əvəzinə müxtəlif sosial rola malik vətəndaş anlayışı formalaşır. Ancaq həmin dövrdə hələ də Böyük İnsan, Qəhrəman və s. kimi anlayışlar ictimai fikir müstəvisində aparıcı rol oynayır.

Dinin dominant olması ilə şəxsiyyətin tarixi rolu ikiləşdi – o sakral və adi rola ayrıldı. İntibahla yenidən şəxsiyyətin fərdi və kollektiv fəallığı aspekti önə çıxmağa başladı. Şəxsiyyətin reflektiv rolu əsas kimi qəbul edildi. Bu dəyişiklik şəxsiyyətin tərbiyəsi və inkişafı məsələsini aktuallaşdırdı. Şəxsiyyət mənəvi və mədəni mahiyyət kəsb etdi, rasional və məntiqi düşüncə faktoru ön plana çəkildi. Bu əsasda Maarifçilik dövrü şəxsiyyətin dərkində Ağıl (Zəka) və Hüquq anlayışlarının əhəmiyyətli rol oynamasına gətirib çıxardı.

O.Kont və G.Spenserin pozitivizminin şəxsiyyətin tarixi rolu haqqında təsəvvürləri kardinal surətdə dəyişdi. Onlar insan zəkası və insan biliyini şəxsiyyət anlayışının mərkəzinə qoydular. İnsanın biliyi, zəkası və rasionallığı ilə təbiətin və cəmiyyətin bütün sirlərinə yiyələnə biləcəyinə mütləq inam yarandı. Təbii ki, siyasət də bu mənada istisna deyildi.

XX əsrin əvvəllərindən Avropada şəxsiyyətin nəzəri dərkində rasionalizmdən irrasionalizmə ciddi dönüş müşahidə edildi. Şəxsiyyəti fərdi aspektdə irrasional strategiyalar çərçivəsində izah etməyə çalışdılar. Bu proses şəxsiyyətə psixoloji yanaşmanı daha da populyar etdi və meydana çox

fərqli izahlar çıxdı.

Maraqlı məqam ondan ibarətdir ki, bu cür dərketmə dinamikası fərqli qütblərdə olan - sosial atomizm və universalizm (kollektivizm) mövqelərini formalaşdırdı. Birinci şəxsiyyətlərin cəmindən cəmiyyətin yarandığını iddia edirdi ki, bu da fərdin rolunu mütləqiləşdirmək demək idi. İkinci isə şəxsi toplumun “sosial vinti” kimi təqdim edirdi. Yalnız ekzistensializm, personalizm kimi cərəyanların meydan gəlməsi ilə şəxsiyyətin mədəni və mənəvi potensialının hərtərəfli açılmasına istiqamətlənmiş təsəvvürlər üstünlük təşkil etməyə başladı. XX əsrin ortalarından başlayaraq tarixi kontekstdə müxtəlif sosial, iqtisadi, mədəni, siyasi, mənəvi, aksioloji və s. faktorları nəzərə alaraq şəxsiyyətin dərkinə baş vuruldu (bax: məs., 9, s. 233–237).

İkinci özəllik tarixi rakursda şəxsiyyətin fəlsəfi-sosioloji və ümumnəzəri anlamlarının dinamikası ilə əlaqəlidir. Fəlsəfi-nəzəri yanaşma üçün Zəka, İradə və Duyğu şəxsiyyətin əsas atributlarıdırlar. İlkin tarixi mərhələdə başlıca olaraq dini zəmində “əsl insan”la (“ipostas”) “sima” (oyunçu maskası və ya hüquqi rolu) arasında məna fərqləri vurğulanmağa başlandı. Bu, sonralar şəxsiyyət haqqında rasional fəlsəfi-nəzəri təsəvvürlərə təsir etdi. Platon və Aristotel yanaşması bu baxımdan maraqlıdır. Orta Əsrlər Avropasında Foma Akvinskinin fəlsəfəsində şəxsiyyətə fərdi kamillik və zəkaviliyin mükəmməl vəhdəti kimi baxış mövcud idi. Şərqdə də “kamil insan”, “Allaha yaxınlaşan bəndə” və s. kimi anlamlar üstünlük təşkil etməyə başladı.

Yeni Dövr Avropa fəlsəfəsində şəxsiyyət daha çox vətəndaşlıq kontekstində dərk edildi. Romantizmdə isə o qəhrəman olaraq qalırdı. Maraqlı yanaşma personalizmdə mövcuddur. Onlar fərd və şəxsiyyət anlayışlarını fərqlənidrməyə çalışırdılar. S.Kyerkeqor yazırdı ki, “insan şəxsiyyət kimi özünü yalnız azad iradə nümayiş etdirməklə təsdiq edə bilər. İradə həm insan həyatının sonlu olmasını, həm də onun mənəvi aləmini məhdudlaşdıran sosial maneələri aradan qaldırır” (10). Bu ideya ekzistensializmdə şəxsiyyət anlaşıyının dərkinə ciddi təsir edib.

Biz təsadüfən şəxsiyyətin fərqli elm sahələrindəki anlamı barədə qısa da olsa, xatırlatmalar etmədik. Məsələ ondan ibarətdir ki, siyasi-nəzəri yanaşmada şəxsiyyət anlayışının başqa elm istiqamətlərindən hansı məqamlarda fərqləndiyi barədə təsəvvür olmalıdır. Eyni zamanda, onların əsasında “siyasi şəxsiyyət” və “siyasi kontekstdə şəxsiyyətin sosiallaşması” anlayışlarını izah etmək imkanı yaranır.

Beləliklə, yuxarıda şəxsiyyətlə bağlı vurğulanan məqamları ümumiləşdirsək, belə qənaətə gələrik ki, “şəxsiyyət” anlayışı insan varlığının sosial-mədəni, siyasi, iqtisadi, psixoloji aspektlərini vurğulamaq üçün xüsusi formalaşmış termindir. Siyasi şəxsiyyət bu anlamda fərdin məqsədyönlü, şüurlu fəaliyyətinin subyektidir. O, öz maraqları ilə siyasi qüvvənin maraqlarını vəhdət halında ifadə edir və reallaşdırır. Daha yüksək səviyyədə siyasi şəxsiyyət bu maraqları vahid tam halında inteqrasiya edərək dövlət, partiya, ictimai-siyasi, beynəlxalq və digər aspektlərdə maraqların vəhdətini yaradır. Liderlik siyasi şəxsiyyətin məhz bu sonuncu yüksək səviyyəsi ilə sıx bağlıdır.

**a) Siyasi mədəniyyət**

Aydındır ki, şəxsiyyət siyasətin əsas subyektidir. Ancaq fərdin siyasi şəxsiyyətə çevrilməsi müəyyən normalar daxilində onun cəmiyyətdə sosiallaşması mexanizmi vasitəsi ilə baş verir. Deməli, siyasi şəxsiyyət müəyyən siyasi mədəniyyət çərçivəsində səmərəli fəaliyyəti nəzərdə tutan siyasi prosesdir.

Burada “siyasi mədəniyyət” anlayışının siyasi şəxsiyyət kontekstində əhəmiyyəti böyükdür. Ümumi halda siyasi mədəniyyət birbaşa siyasi fəaliyyətə təsir edən tarixi təcrübəni ehtiva edir ki, bu da öz növbəsində sosial və siyasi hadisələr haqqındakı yaddaşı, siyasi dəyərləri, prioritetləri və vərdişləri əhatə edir. Bu zaman şəxsin detallı olaraq ümumi sosial və konkret siyasi prosesin çərçivəsində identikliklərə malik olması da şərtdir (11, s. 104).

“Siyasi mədəniyyət” anlayışı müxtəlif siyasi sistemlərin müqayisəli analizini aparmağa imkan verir. Problemin bu aspekti siyasi şəxsiyyət bağlılığında vacibdir. Məsələ ondan ibarətdir ki, “siyasi mədəniyyət” anlayışını İ.Herder ilk dəfə XVIII əsrdə işlətməsinə baxmayaraq, onun konsept kimi sistemli tətbiqi XX əsrin ortalarından başlayıb. Bunun, əsas olaraq, iki aspektdə səbəblərinin olduğunu vurğulayırlar. Onlardan birincisi Avropa cəmiyyətindən fərqli toplumlarda siyasi

fəaliyyətin fərlqi olması zərurətinin nəzəri olaraq etirafı ilə bağlıdır. İkincisi isə Avropanın özündə demokratiya və liberalizmin böhranı ilə əlaqəlidir. Xüsusilə keçən əsrin 90-cı illərində Qərb cəmiyyətlərində müxtəlif hərəkatların – feminizm, gənclərin kontrkültür hərəkatı, KİV-in cəmiyyətdə rolunun artması və s. kimi hadisələr "siyasi mədəniyyət" anlayışına yeni məzmun çalarları gətirdi. O cümlədən hər bir cəmiyyətin siyasi tarixi, orada siyasi sosiallaşmanın özəllikləri, fərqli liderlik ənənəsinin mövcudluğu kimi məsələlərin nəzəri analizini aktuallaşdırdı.

Bunlar siyasi şəxsiyyətə iki səviyyədə təhlili yanaşmanın vacibliyinə əsas yaradır. Onlar geniş miqyasda siyasi şəxsiyyətin tarixi, ümumsosial, siyasi, qlobal səviyyədə dərki ilə konkret toplumdaxili tarixi, sosial, mənəvi-mədəni, siyasi, psixoloji səviyyənin sintezini təşkil edirlər. Eyni zamanda, siyasi şəxsiyyətin fəaliyyətinin miqyası, təsir dairəsi, siyasi sistemdə oynadığı rol və tutduğu mövqe prinsipial əhəmiyyət kəsb edir. Sonuncu tezis avtomatik olaraq siyasi şəxsiyyətlə liderlik arasında sıx bağlılığın siyasi-nəzəri tədqiqinin vacibliyini ön plana çıxarır. Bizim məqalənin elmi məqsədləri baxımından bu, siyasi şəxsiyyətin liderlikdə oynadığı rolun və tutduğu yerin tədqiqinin aktuallığı anlamına gəlir.

Ümumi səviyyədə məlumdur ki, siyasi liderliyi siyasət obyektinə şəxsiyyətin təsiri prosesi kimi təsəvvür etmək olar. Burada ən azı üç şərti vurğulamaq lazımdır: lider insanların həqiqi fəaliyyət motivlərini anlamalıdır, lider normal siyasi həyata imkan yaradan münasibətlər ab-havası yaratmalıdır, lider səmərəli fəaliyyət stilini müəyyən etməlidir. Bu istiqamətdə uğurlu olduğu halda lider dövlət başçılığı ilə bütöv cəmiyyətin qeyri-formal, lakin real lideri olmaq keyfiyyətlərinin harmoniyasına nail olur. Aydındır ki, bu variantda insanların etibarı, şəxsiyyətin özəl keyfiyyətləri (fərdi xasiyyəti, peşəkarlığı, ünsiyyətçilliyi, nüfuzu, təcrübəsi və siyasi idarəetmə stili) və sosial-siyasi institutlaşma əhəmiyyətli rol oynayır. Onların qarşılıqlı təsiri siyasi şəxsiyyətin lider kimi üç aspektini nəzəri baxımdan aktual edir.

Birincisi, liderin şəxsi keyfiyyətləri. İkincisi, lider-cəmiyyət və ayrıca lider-tərəfdarları münasibətlərini qurmaq stili. Üçüncüsü, şəxsiyyətin lider kimi təsir dairəsinin miqyası (qrup səviyyəsi (yəni, əsasən təmsil etdiyi siyasi kəsim, daha geniş olaraq, ümumiyyətlə, cəmiyyətdəki tərəfdarları üzərində təsirə malik olmaqla məhdudlaşmaq), cəmiyyət səviyyəsi, regional səviyyə və qlobal səviyyə).

Bu üç aspekt yekun olaraq konkret zaman və məkanda siyasi şəxsiyyətin lider kimi simasını müəyyən etməyə imkan yaradır. Eyni zamanda, siyasi şəxsiyyətlə liderlik arasında qarşılıqlı əlaqənin nəzəri təsvirini aparmaq şansı meydana gəlir. Həmin əsasda "siyasi şəxsiyyət" anlayışının iki səviyyəsini ayırmaq olar. Onlardan biri fərdin rutin siyasi sosiallaşmasıdır ki, bizcə bu səviyyədə siyasi şəxsdən bəhs etməliyik. Daha yüksək səviyyə, sözün birbaşa mənasında siyasi şəxsiyyət yetişdirir ki, bu məqamı biz daha çox liderlik miqyası ilə əlaqələndirməyi doğru hesab edirik. Özü də bu zaman şəxs qrup, cəmiyyət, region və ya qlobal miqyasda lider olmasından asılı olmayaraq siyasi şəxsiyyət kimi xarakterizə edilə bilər. Çünki söhbət liderlikdən ümumi halda gedirsə, onun daxilində dərəcələrə ayırmaq siyasi şəxsiyyətin kamillik səviyyəsi kimi təqdim oluna bilər ki, bu da ümumiyyətlə siyasi şəxsiyyət anlayışının məna çərçivəsini aşmır.

**b) Siyasi sosiallaşma və siyasi şəxsiyyət**

Beləliklə, yuxarıdakı qısa təhlildən nəticə çıxara bilərik ki, siyasi şəxsiyyətin liderlikdə rolunun daha dərin nəzəri analizi üçün "siyasi sosiallaşma" anlayışının ümumi xarakteristikası aparılmalıdır. Cəmiyyət miqyasında siyasi sosiallaşma hər bir fərdin mənsub olduğu toplumun siyasi yaddaşına, siyasi və mənəvi-etik davranış qaydaları və normalarına yiyələnmə, cəmiyyətin siyasi proseslərinə münasibət bildirmə və onlarda iştiraketmə lazımlığını dərketmə səviyəsinə malikolma əsasında ölkənin siyasi həyatında bu və ya digər dərəcədə iştirak etmə özəlliyini nəzərdə tutur. Siyasi sosiallaşma, ümumiyyətlə, sosiallaşmanın tərkib hissəsidir. Fərd adi vətəndaş kimi özünü dərk edə bilirsə, o artıq müəyyən dərəcədə siyasi sosiallaşmış şəxsdir.

"Siyasi sosiallaşma" anlayışını 1959-cu ildə amerikalı alim G.Heyman daxil edib (12). Hətta siyasi sosiallaşma nəzəriyyəsi mövcuddur və onun daxilində siyasi sosiallaşma prosesinin analizi, siyasi sosiallaşmaya təsir edən faktorların ("agentlər"in) öyrənilməsi və siyasi sosiallaşma prosesinin

nəticələrinin tədqiqi aparılıb. Maraqlıdır ki, nəzəriyyə çərçivəsində siyasi sosiallaşmanı adətən siyasi mühitin şəxsiyyətə “şaquli” mexanizmlə təsiri kimi öyrəniblər. Bu, təşkil edilmiş ictimai institutlar və dəyərlər sistemi vasitəsi ilə müəyyən davranış modellərinin ötürülməsi kimi təsəvvür edilir. Onu da deyək ki, siyasi sosiallaşmanın bu variantı üçün fərdin adi sosial həyatda aldığı təsirlərin sonradan onun siyasi davranışına təsir faktoruna çevrilməsi və ikinci mərhələdə birbaşa siyasi sosiallaşma prosesini nəzərdə tutur. Birinci mərhələ üçün başlıca təsir mühiti kimi ailəni götürürlər. Fərdin ailədə aldığı mənəvi-əxlaqi tərbiyə, irsi xüsusiyyətlərin onun sonrakı mərhələdə siyasi sosiallaşması üçün baza rolu olduğu düşüncəsi vardı. Bununla yanaşı, fərdin həmyaşıdları ilə ünsiyyətinin də əhəmiyyətli rol oynadığı vurğulanır.

Ancaq bizim məqalənin elmi məqsədi üçün də əhəmiyyəti çox olan bir məqam keçən əsrin sonlarından özünü göstərməyə başladı. Hesab etdilər ki, hətta ənənəvi cəmiyyətlər üçün xarakterik olan bir sıra mənəvi-əxlaqi və etik parametrlər dəyişir. Məsələn, artıq bu cür cəmiyyətlərdə böyüklərə hörmət, müəllimlərə böyük sayğı, qohumluq əlaqələrinin ənənəvi səviyyədə münasibətlərdə rol oynamaması və s. kimi dəyişikliklər özünü göstərir. 1986-cı ildə Riçard Merelman bunları nəzərə alaraq siyasi sosiallaşmanın yeni modeli adlandırdığı “üfüqi” sosiallaşmanı təklif etdi (13, s. 279-319). Bu yanaşma siyasi sosiallaşma agentlərinin hamısının bərabərhüquqlu olması tezisinə əsaslanır və real olaraq çoxlu sayda seçim imkanının mövcudluğunu göstərir. Ənənəvi olaraq siyasi sosiallaşmanın sosial institutları kimi qəbul edilən təhsil, KİV, ailə, idarəetmə institutları və s. kimi agentlərlə yanaşı, Qərb birgəyaşayış standartlarına uyğun olan müxtəlif təbiətli dəyərlər də bərabərhüquqlu sosiallaşma faktoru olaraq götürülür. Bu sırada politoloqlar və politologiya da elm və təhsil vahidi kimi nəzərə alınır.

Siyasi sosiallaşma haqqında Qərbdə elmi təsəvvürlərin bu cür yeniləşməsini iki yanaşma arasındakı ziddiyyət kimi təqdim edənlər vardır. Lakin F.Vasburna görə, burada həmin yanaşmaların bir-birini tamamlamasından söhbət getməlidir (14, s. 1.26). Onun məntiqinə görə fərd bir neçə həyat mərhələsində olur – uşaqlıq, yeniyetmə dövrü, gənclik, yetkin dövr və qocalıq. Hər bir mərhələdə sosiallaşma agentləri - ailə, məktəb, dini ibadət məkanı, KİV, fərdin öz ailəsi, iş yeri və siyasi təcrübə fərdə təsir edir. Bütün həyat mərhələlərində siyasi sosiallaşma agentləri arasında kompleks qarşılıqlı təsirlər mövcuddur (məsələn, yaşlı nəsildən gənc nəslə təsirlərin olması ilə yanaşı, gənc nəslin də yaşlı nəslə öz siyasi prioritetlərini retranslyasiya etməsi) və onlar arasında nisbi əhəmiyyətlilik mərhələdən mərhələyə dəyişə bilər (14, s. 10-26). Bu prosesdə şəxsin irsi xüsusiyyətləri, uyğun həyat mərhələsinin özəllikləri, öncəki sosiallaşma təcrübəsi və fərdin sosial strukturdakı mövqeyi həlledici rol oynayır.

Qərb siyasi-nəzəri təlimlərinin yuxarıda vurğulanan məqamlarını inkar etmək olmaz. Ancaq xüsusilə postsovet məkanında XX əsrin 90-cı illərindən başlayaraq müşahidə edilən təcrübə liderlik və siyasi sosiallaşma dinamikası arasında fərqli nisbətin mövcud olması faktını da ortaya qoydu. Xüsusilə, cəmiyyətdə böyüklərə hörmətin ciddi yer tutduğu, ağsaqqallıq institutunun həmişə mövcudluğu, ailə-qohumluq ənənələrinin güclü olduğu faktı varsa, o halda siyasi sosiallaşmanın “üfüqi” formasında özünəməxsus dinamika ola bilər. Məsələn, təcrübə göstərdi ki, siyasi varislik məsələsində siyasi sosiallaşmanın “şaquli” forması ilə “üfüqi” formasının özünəməxsus sintezi vacibdir. Deyək ki, Azərbaycan kimi öz tarixi-siyasi yoluna malik cəmiyyətlərdə ağsaqqallıqdan, böyüklərə hörmətdən və ailə ənənələrindən kəskin imtina etmək faciələrə yol aça bilər. Ulu öndər Heydər Əliyev ölkə üçün çox ağır olan bir dönəmdə yenidən hakimiyyətə dəvət ediləndə vurğulamışdı ki, böyük-kiçik münasibətləri pozulur, ağsaqqallara öncəki hörmət azalır, ailə ənənələrinə zərər verilir. Bu deqradasiya prosesinin qarşısı mütləq alınmalıdır, çünki Azərbaycan üçün sadalanan mənəvi-etik keyfiyyətlər prinsipial əhəmiyyət kəsb edir. Təcrübə göstərdi ki, Heydər Əliyev tam haqlıdır. Ulu Öndərin ənənə ilə müasirliyin sintezində həyata keçirdiyi siyasi varislik xətti öz yüksək səmərəsini göstərdi və hazırda da göstərməkdə davam edir.

Mövzunun bu aspekti geniş, əhatəli və dərin təhlil tələb edir. Biz tədqiqatımızda ona ayrıca diqqət yetirəcəyik. Burada bügünümüzün siyasi reallığı ilə sıx bağlı olan və siyasi varisliyin uğurlu modelinin səmərəsini konkret faktlarda ifadə edən bir mühüm məqamı qısa qeyd edək. Prezident

İlham Əliyev 2021-ci ilin may ayının 10-da Naxçıvan Muxtar Respublikasına səfəri zamanı Azərbaycan televiziyasına verdiyi müsahibədə keçən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycandakı siyasi vəziyyəti təsvir edərkən dedi ki, o vaxtkı Azərbaycan hakimiyyəti Naxçıvanda Heydər Əliyevi devirmək üçün çox çalışdı. Onlar Heydər Əliyev amilinin siyasətdən getməsini əsas məqsəd kimi qarşıya qoymuşdular. Buna xaricdən də dəstək vardı, çünki Azərbaycandakı səriştəsiz siyasətçilərdən fərqli olaraq xaricdə Heydər Əliyevin necə güclü və milli bir lider olduğunu yaxşı bilirdilər.

Bu bağlılıqda Prezident fikirlərinə davam edərək ifadə etdi: "Ancaq Ulu Öndərin qətiyyəti, cəsarəti, siyasi müdrikliyi, naxçıvanlıların fədakarlığı bütün bu planları – ermənilərin və AXC-Müsavat cütlüyünün planlarını alt-üst etmişdir və Naxçıvanı Heydər Əliyev qorumuşdur, necə ki, ondan sonra Azərbaycanı böyük bəlalardan qoruya bildi. 1993-cü ildə ölkəmiz demək olar ki, parçalanırdı, vətəndaş müharibəsi gedirdi və məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində biz bu ağır sınaqdan üzüağ çıxa bildik. Məhz bugünkü Zəfərin təməli, bax, o vaxt qoyulmuşdur.

Bu gün burada olmağımın xüsusi rəmzi mənası var. Naxçıvan bizim əziz diyarımızdır, Heydər Əliyevin Vətənidir. Hər bir azərbaycanlı üçün əziz, doğma diyardır və Naxçıvanın inkişafı, çiçəklənməsi artıq reallıqdır. Bu reallığı biz özümüz yaratmışıq. Bu gün Ulu Öndərin xatirəsinə göstərilən ən böyük diqqət məhz özünü, bax, bu inkişafda təcəssüm etdirir" (15).

Ulu Öndərlə bağlı gətirdiyimiz bu nümunə də göstərir ki, nəzəriyyədə meydana gələn hər bir yeniliyin konkret cəmiyyətlərə kreativ olaraq yerli ənənə, keçilən siyasi-tarixi yolun özəlliyi nəzərə alınaraq tətbiqi praktiki səmərə verə bilir. Bu mənada Azərbaycan reallıqları kontekstində "siyasi şəxsiyyət" anlayışının ümummilli liderlik bağlılığında təhlili aktuallıq kəsb edir.

**Azərbaycan reallıqları və "siyasi şəxsiyyət" anlayışı: Heydər Əliyevin ümummilli liderliyi fonunda**

Siyasətdə və ayrıca siyasi liderlikdə Heydər Əliyev fenomeninin tədqiqi çox məsuliyyətli işdir. Bunun üçün siyasi təlimlərdə liderliklə bağlı olan müddəaları, aparılan analizlərin daxili məntiqini və alınan nəticələrin məzmununu bilmək çox vacibdir, lakin kifayət deyil. Heydər Əliyev fenomeninin nəzəri obrazı Azərbaycan reallıqları kontekstində adekvat dərk oluna bilər. Yəni Heydər Əliyevin şəxsiyyətinə, fəaliyyətinə, həyat yoluna çox ciddi nəzəri-metodoloji çərçivədə baxmaq həm də Azərbacan gerçəkliklərini ciddi surətdə nəzərə almağı tələb edir. Etiraf edək ki, Ulu Öndərin siyasi-nəzəri aspektdə öyrənilməsində hələ xeyli boşluqlar vardır. Görünür, çox zəngin şəxsi keyfiyyətlərə və böyük siyasi təcrübəyə malik olan, demək olar ki, XX əsr boyu Azərbaycan dövlətçiliyində əvəzsiz rol oyanayan Ümummilli Lideri hələ uzun müddət tədqiq etməli olacağıq.

Biz bu məqalədə Heydər Əliyevin siyasi şəxsiyyət kimi özəlliklərinə yuxarıda vurğuladığımız ümumnəzəri müddəalar prizmasında yalnız 1993-2000-ci illər müddətində göstərdiyi fəaliyyət çərçivəsində nəzər salmağa çalışacağıq. Onu vurğulayaq ki, Heydər Əliyev şəxsiyyətinə ümummilli liderlik kontekstində və dövlət başçısı vəzifəsi ilə sintezdə baxılır. Çünki Heydər Əliyev həmişə Böyük Siyasət adamı olub, dahi dövlət xadimidir, fəaliyyəti milli, regional və qlobal miqyası əhatə edib. Onun təsir dairəsi yalnız Azərbaycan və türk dünyası ilə məhdudlaşmır – Ulu Öndər Azərbaycan Prezidenti və xalqın Lideri kimi Cənubi Qafqazda və dünyada təsirə malik olub. Analizi də məhz bu kimi incə siyasi məqamları nəzərə alaraq tam elmi çərçivədə həyata keçirmək lazımdır.

Öncə vurğulayaq ki, Prezident İlham Əliyevin yuxarıda xatırlatdığımız "...Ulu Öndərin qətiyyəti, cəsarəti, siyasi müdrikliyi" qərəzli planların hamsını alt-üst etmişdir və "...məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində biz bu ağır sınaqdan üzüağ çıxa bildik. Məhz bugünkü Zəfərin təməli, bax, o vaxt qoyulmuşdur" tezisləri bizim üçün nəzəri və praktiki mayak rolunu oynayır. Bunun üçün ciddi əsaslarımız və arqumentlərimiz vardır.

Belə ki, keçən əsrin 90-cı illərinin əvvəllərində bir sıra xarici və daxili faktorların qarşılıqlı mənfi təsirləri nəticəsində Azərbaycan dövlət, ölkə və coğrafi ərazi kimi böyük risklərlə üz-üzə idi. Sosial-siyasi institutlar demək olar ki, işləmirdi. Cəmiyyətlə hakimiyyət arasında böyük uçurum yaranmışdı – o dövrdə rəhbərlərə inam qalmamışdı. E.Hollanderin termini ilə desək, artıq 1992-ci il

və 1993-cü ilin əvvəllərinə həmin dövrdə nə özlərini lider adlandıranların, nə də dövlətə başçılıq edənlərin "idiosinkrazik kredit"i və ya "etibarlılıq krediti" (16, s. 179-189) qalmamışdı. Xatırladaq ki, "idiosinkrazik kredit" liderə və həm də dövlət başçısına qoyulmuş normalardan kənar davranışlara cəmiyyət tərəfindən verilən manevr miqyasıdır. Əgər bu cür imkandan istifadə edən rəhbər və ya lider uğur qazanırsa, ona olan etibar yüksəlir, əks halda rəhbər-xalq və lider-cəmiyyət münasibətlərində tam bir xaos yaranır, qarşılıqlı inamsızlıq, dağınıqlıq, qanunsuzluq hökm sürür. 1992-ci il və 1993-cü ilin iyun ayına qədər Azərbaycan məhz belə bir təhlükəli və riskli vəziyyətə düşmüşdü.

Siyasi nəzəriyyələrdə bu cür durumu "böhran vəziyyəti" adlandırırlar. Və liderlik aspektində aktual olan məsələ kimi "bu cür vəziyyətdən ölkəni kim, hansı keyfiyyətlərə malik lider və rəhbər çıxara bilər?" sualı qoyulur. Siyasi təlimlərdə bu cür suallara aydınlıq gətirmək cəhdlərinə rast gəlinir. Politoloqlar daha çox Maks Veberin "xarizmatik lider" anlayışı prizmasında cavab axtarırlar. Lakin Jan Blondelin də analiz etdiyi kimi, situasiya M.Veberin təqdim etdiyindən daha mürəkkəb xarakterə malikdir (2, s. 47-49).

M.Veber hesab edirdi ki, cəmiyyətin böhran hallarından mütləq xarizmatik lider meydana çıxır. O yazırdı ki, "cəmiyyət ciddi böhran keçirəndə xarizmatik hakimiyyət meydana gəlir" ( 2, s. 47). Ancaq J.Blondel tarixi təcrübəyə əsaslanaraq heç də həmişə belə olmadığını əsaslandırır. Belə ki, bir sıra hallarda, ümumiyyətlə, xarizmatik lider meydana çıxmır, bir başqa halda xarizmatik olmayan hakimiyyət formalaşa bilir və s. J.Blondel vurğulayır ki, böhran xarizmatik liderin özünü göstərməsi üçün zəruri, lakin kifayətedici şərt deyil. Bütövlükdə isə xarizmatik liderin meydana gəlməsini aydın və tam təmin edən elə bir şərt yoxdur" (2, s. 47). Fikirlərinə davam edərək o yazır ki, əslində xarizmatik liderliklə cəmiyyətin böhran vəziyyəti arasında "qarşılıqlı asılılıq çox deyil" (2, s. 48).

Belə çıxır ki, cəmiyyətin ciddi böhran zolağına düşməsi ilə təhlükəli lider boşluğu yaranır, lakin bütün hallarda toplum öz daxilindən xilasedici ola biləcək siyasi şəxsiyyət – lider çıxara bilmir. Deməli, elə bir xüsusi şərtlər (tarixi, sosial, psixoloji, siyasi, mənəvi-etik, iradi, zəkavi) vardır ki, onların mövcudluğu şəraitində cəmiyyət xilasedici missiyasını yerinə yetirə bilən siyasi şəxsiyyəti meydana çıxara bilir. O, təbii ki, elə şəxsi keyfiyyətlərə malik olmalıdır ki, cəmiyyəti, milləti və dövləti xaosdan nizamlılığa keçirə bilsin. Niyə biz məhz şəxsi keyfiyyətləri ön plana çəkirik? Çünki kəskin və total böhran şəraitində fərdi real siyasi lider etməyə cəmiyyətin heç bir sosial institutu qadir olmur. Əksinə, dağılmış və funksiyasını itirmiş institutlar vəziyyəti daha da gərginləşdirir. Real olaraq yalnız bir faktor qalır: xalq daixli inamı, etibarı və təcrübəsi əsasında konkret fərdin xarizmasını görə bilsin, ona etibar etsin və hakimiyyətə gəlməsinə şərait yaratsın. 1992-1993-cü illərdəki kəskin böhran dövründəki təcrübə göstərdi ki, Azərbaycanda belə bir siyasi şəxsiyyət – lider var! Məhz xalq Heydər Əliyevi özünün xilasedici lideri kimi hakimiyyətə yenidən dəvət etdi. Burada politoloji baxımdan siyasi şəxsiyyət aspektində iki mühüm özəlliyi vurğulamaq lazımdır.

Birincisi, Azərbaycan xalqı həmin seçimi ilə müdrikliyini, zəngin dövlətçilik təcrübəsini və liderlərini tanıdığını sübut etdi. Bu, toplumun siyasi-dövlətçilik təcrübəsinin zənginliyindən xəbər verir. İkincisi, Heydər Əliyevin xilasedici siyasi lider kimi seçilməsi Ulu Öndərin yüksək şəxsi keyfiyyətlərə, mənəvi-etik dəyərlərə, dövlətin tarixini gözəl və dərindən bildiyinə, çox zəngin təcrübəyə və yenilməz siyasi iradəyə malik olduğundan xəbər verirdi. Bu məqam sonradan "xalq-Heydər, Heydər-xalq" tezisinin real vəhdəti ifadə etməsində bir daha öz təsdiqini tapdı.

Beləliklə, Azərbaycanda yaranmış kəskin siyasi, sosial, geosiyasi, iqtisadi, mənəvi və idarəetmə böhranı xilasedici liderin meydana gəlməsinə səbəb oldu. Heydər Əliyev 1993-cü ilin iyununda hakimiyyətə qayıdandan dərhal sonra birbaşa xilasedicilik missiyasına başladı. Təcrübə göstərdi ki, qısa müddətdə Ulu Öndər bu vəzifənin öhdəsindən yüksək səviyyədə gəldi. O dövrdə siyasi liderlərin, analitiklərin və ekspertlərin qənaətinə görə Heydər Əliyev bu nəticəyə ilk olaraq şəxsi keyfiyyətləri və təcrübəsi əsasında nail ola bildi. Heydər Əliyev yüksək zəkaya, mənəvi-əxlaqi keyfiyyətlərə və yenilməz iradəyə malik şəxsiyyət kimi liderliyini tam mənası ilə yerinə yetirdi. Bu zaman Ulu Öndərin zəngin siyasi təcrübəsi, sovet dönəmində çox müxtəlif situasiyalarda rəhbər kimi fəaliyyət göstərməsi ciddi olaraq rol oynadı. Heydər Əliyev məhz siyasi şəxsiyyət kimi qalib gəldi. Həmin səbəbdən artıq 1994-cü ildə Heydər Əliyev Ümummilli Lider kimi qəbul edilirdi. Bunun sübutu

1994-1995-ci illərdə ölkədə bir neçə sui-qəsd cəhdləri zamanı Heydər Əliyevin bir çağırışı ilə milyonlarla insanın meydanlara onu müdafiəyə toplaşmasıdır. Özü də həmin toplanışlarda insanlar əmin idilər ki, Heydər Əliyevi müdafiə etmək bütövlükdə Azərbaycanı, onun müstəqil dövlətçiliyini müdafiə etmək deməkdir. Bu mənada Ulu Öndərin "etbarlılıq krediti" yüksək səviyyədə idi və fəaliyyətinin son məqamına qədər həmin zirvədə də qaldı.

1994-cü ildən sonrakı illərdə Heydər Əliyev xilasedici liderliklə yanaşı, nizamlayıcı və qurucu liderliyi sintez edə bildi. Nizamlayıcı lider cəmiyyətdə tam sosial-siyasi sabitliyin yaradılması və iqtisadi islahatların aparılması, idarəetmənin daha da təkmilləşdirilməsi hesabına, ümumiyyətlə, sabitliyin yaradılmasını nəzərdə tutur. Dünyanın aparıcı siyasi rəhbərləri və liderləri 1995-2000-ci illər arasında bir neçə dəfə etiraf etmişdilər ki, Heydər Əliyevin ən böyük nailiyyətlərindən biri qısa zamanda Azərbaycanda daxili sabitliyi təmin etməsi idi. Özü də Ulu Öndər buna cəmiyyəti radikalizmin bütün növlərindən təmizləmək bahasına nail oldu.

Akademik İsa Həbibbəylinin bir fikri bu aspektdə çox maraqlıdır. Akademik yazır: "...siyasi olimpin zirvəsinə doğru inkişafda Heydər Əliyev adidən aliyə doğru bütün pillələri addım-addım keçmiş, zəngin həyat təcrübəsi əldə etmiş və mükəmməl dövlət idarəçiliyi mədəniyyəti qazanmışdır" və bu yolda "...ən zəruri şərtlərdən biri siyasi şəxsiyyətin mübarizəsində ümummilli ideallarınaparıcılıq təşkil etməsi, xüsusi yer tutmasıdır" (17).

Heydər Əliyev "ümummilli ideralların aparıcılığı"nı qurucu-lider kimi 3 istiqamətdə təmin edə bilib. Birinci istiqamət azərbaycançılıq konseptinin sistemli ideologiyaya çevrilməsi ilə bağlıdır. Bununla Heydər Əliyevin siyasi şəxsiyyəti və liderlik xarizması cəmiyyəti birləşdirməyin səmərəli yolunu tapmış oldu.

İkinci istiqamət müstəqil dövlət quruculuğunun dövrün tələblərinə uyğun prinsiplər üzrə təşkil edilməsi və reallaşdırılması ilə əlaqəlidir. Heydər Əliyev "güclü dövlət" kursunu seçdi və ona nail olmaq üçün yeni iqtisadi infrastruktur və enerji strategiyası hazırladı ki, sonrakı mərhələdə güclü və demokratik cəmiyyətin formalaşması üçün lazımi sosial, siyasi, iqtisadi və mədəni şərait formalaşdı.

Üçüncü istiqamət "bir millət, iki dövlət" formulunun ideya potensialı əsasında Azərbaycanın regional gücə çevrilməsini təmin etmək və dövləti qlobal geosiyasətdə öz mövqeyi olan inkişaf səviyyəsinə yüksəltməklə bağlıdır.

Bununla da Heydər Əliyevin XXI əsrin astanasında xilasedici-nizamlayıcı-qurucu (birləşdirici) lider obrazı tam formalaşmış oldu. Ulu öndərin siyasi şəxsiyyət kimi keyfiyyətləri bu prosesdə aparıcı rol oynadı. Həmin aspektdə siyasi şəxsiyyətin liderlik kontekstində oynadığı rolun nəzəri analizi xeyli aktual görünür. Ancaq bu, geniş təhlil tələb edir və başqa məqalənin mövzusudur. Biz tədqiqatımızda həmin mövzuya baş vurmağı düşünürük. İndi isə siyasi şəxsiyyətin liderlik kontekstində ümumnəzəri analizi əsasında bir sıra ümumiləşdirmələr aparaq və nəticələrə nəzər yetirək.

**Ümumiləşdirmələr**

Nəzəri olaraq "siyasi şəxsiyyət" anlayışının geniş və dərindən analiz edilməsinə ciddi ehtiyac vardır. Aparılan tədqiqat göstərir ki, müasir tarixi mərhələdə siyasi təlimlərdə bu məsələyə diqqət verilsə də, praktiki-tətbiqi aspektdə konkret ölkələrlə əlaqəli situasiyalarda yeni araşdırmalara ehtiyac duyulur. Ayrıca siyasi şəxsiyyətin liderliklə qarşılıqlı əlaqəsinin dinamikasının nəzəri tədqiqi aktuallıq kəsb edir. Siyasi şəxsiyyətin həmin kontekstdə öyrənilməsi liderlikdə siyasi şəxsiyyətin yeri və rolu məsələsinin araşdırılması üçün də faydalı ola bilər.

Məqalədə aparılan təhlil onu da göstərdi ki, Azərbaycanda XX əsrin 90-cı illərində siyasi şəxsiyyət faktoru total siyasi böhrandan çıxmaq prosesində həlledici, iqtiqamətverici və təminedici rol oynayıb. Məhz Heydər Əliyevin siyasi şəxsiyyət kimi malik olduğu keyfiyyətlər Azərbaycan dövlətçilik ənənəsində yeni tip liderin formalaşmasına təkan verdi. Heydər Əliyev xilasedici-nizamlayıcı-qurucu(birləşdirici) liderliyin mükəmməl nümunəsidir.

**Nəticələr/Conslusion**

Yuxarıda aparılan ümumiləşdirmələrdən bir sıra nəticələr çıxara bilərik.

1. "Siyasi şəxsiyyət" anlayışı liderliyin nəzəri dərkində əsas yerlərdən birini tutur.

2. Siyasi şəxsiyyət-liderlik qarşılıqlı təsirlərinin konkret nisbəti bütövlükdə siyasi rəhbərliyin məzmununa ciddi təsir edir.

3. Siyasi şəxsiyyət dövlət başçısı və liderliyin bir şəxsdə təcəssüm etməsində həlledici, aparıcı və müəyyənedici faktor kimi çıxış edir.

4. 1993-2000-ci illərdə Azərbaycanın siyasi təcrübəsi Heydər Əliyevin xilaskar-nizamlayıcı-qurucu(birləşdirici) lider kimi özünü təsdiqlədiyini göstərdi. Bu proses siyasi şəxsiyyət – lider qarşılıqlı təsirlərinin xüsusi məzmun kəsb etməsi sayəsində baş tutdu.

**İstifadə olunmuş ədəbiyyat/References**

1. Drolo D. Demokratiya i slozhnost': realisticheskiy podkhod / Per. s angl. A. A. Kalinina. M.: Izd. dom Gos. un-ta Vysshey shkoly ekonomiki, 2010, 320 s.

2. Blondel' ZH. Politicheskoye liderstvo: Put' k vseob"yemlyayushchemu analizu. M.: Rossiyskaya akademiya upravleniya, 1992, 135 s.

3. Braun A. Tipy liderov. Opredelit', nayti podkhod, dobit'sya svoyego. M.: Bombora, 2019, 730 s.

4.Kudryashova Ye.V. Liderstvo kak predmet sotsial'no-filosofskogo analiza. SAFU im. M.V. Lomonosova, 2019//URL: https://iphras.ru/uplfile/ root/news/archive_events/2019/2kudryashova_e_v_liderstvo_2019.pdf. Müraciət tarixi 23.03.2021.

5.Kon I. S. Sotsiologicheskaya psikhologiya. M.: Moskovskiy psikhologo-sotsial'nyy institut; Voronezh: Izdatel'stvo NPO «MODEK», 1999, 560 s.

6.Abushenko V. L. Lichnost' // Noveyshiy filosofskiy slovar' / Sost. A. A. Gritsanov. Mn.: Izd. V. M. Skakun, 1998, 896 s.

7.Krasnykh V. V. «Svoy» sredi «chuzhikh»: mif ili real'nost'? M. : Gnozis, 2003, 375 c.

8.Kashkin V. B. Vvedeniye v teoriyu kommunikatsii. Voronezh: Izd-vo Voronezh. tekhn. gos. un-ta, 2000, 175 c.

9. Gushchin A. A. Rol' lichnosti v istorii // Modeli, sistemy, seti v ekonomike, tekhnike, prirode i obshchestve. 2013, № 3 (7).

10. K'yerkegor S. Besedy i razmyshleniya / Per. A. V. Lyzlova. M.: Ripol-klassik, 2018, 512 s.

11.Kosolapov N.A. Lichnost' politicheskaya//Glossariy po politicheskoy psikhologii / Pod red. Ol'shanskogo D.V. M.: RUDN, 2003.

12.Hyman H.H. Political socialization; a study in the psychology of political behavior. Glencoe, Ill. : Free Press, 187 s.

13.Merelman R. M. Revitalizing Political Socialization // Hermann M.
(ed.) Political Pshychology. San-Francisco, 1986, p. 279-319.

14.Wasburn Ph. A life Course Model of Political Socialization//Politics and Individual. 1994, Vol. 4, №2, p.1-26.

15.Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib 10.05.2021//-https://azertag.az/xeber/ 16.Prezident_Ilham_Aliyev_Azerbaycan_Televiziyasina_musahibe_verib 1778087. Müraciət tarixi 11.05.2021

17. Hollander E. Power and Leadership in Organizations; Relationships in Transition / E. Hollander, L. Offermann // Amer. Psychologist. 1990, Vol. 45, № 2, p. 179–189.

18. Həbibbəyli İsa. Ümummilli liderlik: miqyası və missiyası /"Azərbaycan" qəzeti, 12 dekabr 2019-cu il//URL: http://imbb.az/az/news/431. Müraciət tarixi 12.05.2021.

**Göndərilib:11.03.21** **Qəbul edilib: 29.05. 21**